Tarix boyu insan azadlıqları uğrunda mübarizə nə qədər ölümlərdən, qanlardan keçirsə, bir o qədər də sözdən keçir. Qəlbi Vətən və xalq sevgisi ilə alışıb yanan söz-sənət adamları açıq cəbhədə haqq uğrunda vuruşan döyüşçülər qədər mübarizə əzmində olurlar.

Son yüz illiyin tarixi Azərbaycan xalqı üçün sözün həqiqi mənasında, faciələr tarixi kimi yaddaşlarda qalmaqdadır. Ötən əsrin əvvəllərindəki Səttar Xan, Bağır xan hərəkatı, sonralar Azadıstan dövrü - Şeyx Məhəmməd Xiyabani savaşı tarixin yaddaşında Azərbaycan haqları uğrunda mübarizənin ən qanlı və eyni zamanda ən dəyərli səhifələrini yaradıb.

Azərbaycan xalqı bu gün Şimali Azərbaycanın timsalında müstəqil istinad evi qurub. Amma hər halda qırx milyonluq soydaşlarımız da dil və muxtariyyət uğrunda mübarizəni yeri gəldikcə davam etdirirlər.

Ötən əsrin İkinci Cahan savaşının tarixi dünya düzənini xeyli dəyişdi. Azərbaycan üçün ən həssas bir dövr yetişmişdi. Pişəvərinin başçılığı ilə Milli Hökumət quruldu. Çox təəssüf ki, o zamanın imperiyapərəst dairələri nəticələri öz maraqlarına uyğun həll etdilər. Milli hökumət qan içində boğuldu. Minlərlə soydaşımız Arazın bu tayına - bizə pənah gətirdi. O vaxt mən orta məktəbdə oxuyurdum. O taydan gələnlərlə ara-sıra təmaslarım da olurdu. Sonralar mətbəədə işimlə bağlı o taydan təqiblərdən yaxa qurtararaq bizə pənah gətirmiş azərbaycanlı ədiblərlə yaxından tanış oldum. S.Tahiri tanıdım, B.Azəroğlunu gördüm, Tariyel Ümidlə digər söz-sənət adamları ilə yaxınlığım son vaxtlara qədər davam edirdi. Qərib Aşkarinin "Gözlə məni körpüdə" adlı kitabını sap etdim. Yeri düşdükcə bu sənətkarlar haqqında öz ürək sözlərimi də yazmağa çalışmışam. Bir çoxlarının məndə avtoqraflı kitabları var. Xalq şairi S.Tahirlə də "Kredo" qəzeti redaksiyasında bir neçə dəfə görüşüm olub. Ə.R.Xələflinin 2000-ci illərin əvvəllərində yazdığı "Söhrab Tahirə məktub" qəsidə-poeması oxucular arasında rəğbətlə qarşılandı. Mən dəfələrlə müəllifə deyirdim ki, həmin əsəri ayrıca kitab halında çap etmək lazımdır. Bu, bizim cənublu soydaşlarımıza mənəvi dəstəyimiz olar. S.Tahir və digər bir çoxları da Vətən həsrəti ilə əbədiyyətə qovuşdu. Amma azadlıq arzuları ürəklərdən silinmir. Mən Ə.Xələflinin "Söhrab Tahirə məktub" qəsidə-poeması əsasında yazdığı təxmis-poemanı əlyazma nüsxəsində oxudum. Və bir daha əmin oldum ki, bütün varlığı Vətən üçün səfərbər olunan yazı adamının sinəsindəki yanğı heç vaxt sönmür. Bir necə bəndi nümunə üçün diqqətə çəkirəm:

# "QURDAĞZI DUASI"
## POEMASINDA HƏSRƏT YANĞISI

Salam ustad, səninləyəm, - yaxınında, uzağında,  
Ya yanaram, ya donaram - alovunda, sazağında.  
Gözüm yanır dərd selinin sahilində, qırağında;  
Söhrab Tahir, həsrətlərin dağ oldumu öz yağında,  
Gənclik getdi, dərd içində o çağın da, bu çağın da.

Səninkidir taleyinin dərdi qucan xəritəsi,  
Bir ananın ahı yanan, dili can-can xəritəsi,  
Sinəsində doğram-doğram bir həyəcan xəritəsi;  
Tanrı çəkmiş qara xaldı Azərbaycan xəritəsi  
Bütövlüyün vüsalına çatıb şair-yanağında.

Dərd bulağın qurumadı, təşnə-təşnə içən yoldu,  
Xudafərin körpüsündə doğru-düzü seçən yoldu,  
Savalandan gələn yoldu, - dərd zəmisi biçən yoldu:  
Alnındakı qırışları Həştadsərdən keçən yoldu,  
Qoca qartal yol gözləyir, həsrət çəkir Bəzz dağında.

Göründüyü kimi, əsər elə başlanğıcındaca hisslərin, duyğuların yanğısı ilə oxucunun nəinki gözlərini, elə özünü də yandırır. Müəllifin hissləri sanki sərhəd tanımır. Bir-birinə əks olan mənaların təzadları ilə öz əsərinin təsirini daha da artırır. Özü də yeri gəldikcə xalq ifadə və deyimlərindən ustalıqla yararlanır. Maraqlıdır ki, xalq arasında yanğıları ifadə etmək üçün "dağ olmaq" sözünün mənasından tez-tez istifadə olunur. Amma bunu poeziyaya gətirməklə müəllif Vətən, yurd həsrəti çəkənlərin necə yanğı ilə yaşadıqları göstərmək istəyir.

Müəllif çox uğurlu bir obraz seçib. Bu, Söhrab Tahir obrazıdır. Yaxşı yadımdadır, S.Tahirin anası oğlu ilə görüşmək üçün illər boyu Şah rejiminə qarşı mübarizə aparmışdı. Axır ki, ona çətinliklə razılıq verdilər. S.Tahirin anasının Azərbaycana gəlişi çox böyyk hadisəyə çevrildi.

*(Davamı 11-ci səhifədə)*

# "QURDAĞZI DUASI" POEMASINDA HƏSRƏT YANĞISI

*(Əvvəli 10-cu səhifədə)*

Bəli, o vaxt, Azərbaycanın elm və mədəniyyət xadimləri o taydan vətənə pənah gətirmiş siyasi mühacirlərin hamısı S.Tahirin anası Nəsibə xanımın görüşünə gəlmişdi. Mən qətiyyətlə deyirəm ki, S.Tahirin anasının gəlişi ilə bağlı yazılan əsərləri bir yerə toplamaq mümkün olsaydı, bəlkə, iki cild kitab tərtib etmək olardı. Nə isə... sözüm ondadır ki, nisbətən əmin-aman bir dövrdə, əlbəttə, sovet ideologiyasının basqıları altında yaşayan xalqımız Cənub məsələsinə qətiyyən biganə deyildi. Tarix özü göstərir ki, azadlıq hissləri heç vaxt insanın varlığında səngimir. Zaman keçdikcə daha güclü vulkan kimi püskürüb üzə çıxır. Maraqlıdır ki, müəllif də bütün məqamlarda atılan addımların ağıla, düzgün idarə olunmasına rəvac verən hisslərlə poemasını qələmə alır. Doğrudur, müəllifin bəzi düşüncələrində səbrə, təmkinə çağırış olduğundan da artıq təsir bağışlayır:

Gözlə hələ, üfüqlərin qan rənginə boyanmayır,
Qoca tarix dözümlüdür, zənn eləmə, oyanmayır,
Tüstülənir korun-korun - nə sönməyir, nə yanmayır;
Zaman ilə cəngə çıxıb yorulmayır, usanmayır,
Tufanlara tapşırdığı taleyinin sorağında.

Olanları, olmazları dilə gətir, sözlə hələ,
Qoy qorlansın, qoyma sönə, ocağını közlə hələ,
Al bıçağı, kəs yaranı, göynəm-göynəm duzla hələ;
Söhrab Tahir, bu dünyanın üzü bərkdi, gözlə hələ
Bir gün gələr işıq yanar, anaların çırağında

Nə demək olar, xalqımızın taleyinə yazılmış faciələri ruhumuzda, varlığımızda daşıdığımız iztirablarla biz də yaşayırıq. Əslində, müəllifin də məqsədi elə budur ki, hər bir özünü dərk edən vətən övladı xalqın istək və arzuları uğrunda mübarizədən kənarda qalmasın.

"Qurdağzı duası" poeması ədəbiyyatımızın indiki mərhələsində maraqlı hadisə kimi diqqəti cəlb edəcək.

*(Davamı var)*

***Ş.CƏFƏROV***